## *PEŞƏ TƏHSİLİ MƏSƏLƏLƏRİ*

UOT 377.

***Həsən Bayram oğlu Bayramov,***
*pedaqogika üzrə elmlər doktoru*

# İLK PEŞƏ-İXTİSAS MÜƏSSİSƏLƏRİNDƏ TƏLİM PROSESİNƏ NƏZARƏT

***Гасан Байрам оглы Байрамов,***
*доктор наук по педагогике*

# КОНТРОЛЬ НАД ПРОЦЕССОМ ОБУЧЕНИЯ В ПЕРВЫХ ПРОФЕССИОНАЛЬНО-УЧЕБНЫХ ЗАВЕДЕНИЯХ

***Hasan Bayram Bayramov,***
*doctor of pedagogical sciences*

# CONTROL ON TRAİNİNG PROCESS İN FİRST VOCATİONAL LEARNİNG İNSTİTUTİONS

**Xülasə:** Məqalədə pedaqoji proseslərin əsas anlayışlarından olan təlim haqqında, onun vəzifələri, təşkili prinsipləri və növləri ilə bağlı bəzi elmi-nəzəri fikirlər bildirilir. Eyni zamanda ilk peşə-ixtisas müəssisələrində təlim prosesinə nəzarət məsələlərindən bəhs edilməklə, insan kapitalının formalaşmasında əmək müəssisələrində peşə hazırlığının metodiki aspektdən şərhi verilir.

***Açar sözlər:*** *peşə-ixtisas təlimi, təhsil-tərbiyə, istehsalat təlimi, məktəb rəhbəri, psixoloji situasiya, şagird, bacarığı və dünyagörüşü, təbiət, kollektiv inkişaf, Peşə təhsili qanunu və s.*

**Резюме:** В статье рассматриваются вопросы обучения, являющегося одним из основных понятий педагогического процесса, высказываются научно-теоретические мысли о задачах, принципах организации и видах обучения. Также в статье говорится о вопросах контроля над процессом обучения в специальных учебных заведениях и представлен обзор методических аспектов профессионального обучения на трудовых предприятиях, его роль в формировании человеческого капитала.

***Ключевые слова***: *специальное (профессиональное) обучение, образование-обучение, производственное обучение, руководитель школы, психологическая ситуация, ученик, умение и мировоззрение, природа, коллективное развитие, Закон о профессииональном образовании*

**Summary:** In the article the problems of training, which is one of main notions of pedagogical process are studied, some scientific-theoretical ideas about aims, organization principles and kinds of training are told. Besides, in the article the problems of control on training process in vocational learning colleges, methodical aspects of professional training in working plants are presented, it's role in forming of human capital id analyzed.

***Key words:*** *special (professional) training, educational training, industial training, school chief, psychological situation, pupil, skill and outlook, nature, Education Act of professional education, etc*

Son illər ərzində ölkədə təhsilin inkişafı istiqamətində mühüm addımlar atılmış, təhsilin normativ-hüquqi, maddi-texniki bazası daha da təkmilləşdirilmiş və möhkəmləndirilmişdir.

Təhsil sistemi müstəqil Azərbaycanın milli dəyərlərini mənimsəmiş vətəndaş formalaşdırmalı, qloballaşan və müasir dünyada rəqabətədavamlı, peşəkar kompetensiyalara və biliklərə malik bir insan yetişdirməlidir. Ölkəmizin təhsil sisteminin və infrastrukturunun inkişaf səviyyəsinin dünyanın aparıcı təhsil sistemləri səviyyəsinə çatdırılması isə əsas məqsədlərdən biridir.

"Təhsil haqqında" Azərbaycan Respublikasının Qanununda da qeyd olunduğu kimi,

Azərbaycan Respublikasında təhsil dünyəvi və fasiləsiz xarakter daşımaqla, vətəndaşın, cəmiyyətin və dövlətin maraqlarını əks etdirən strateji əhəmiyyətli fəaliyyət sahəsidir [1].

Son zamanlar ölkədə və dünyada dinamik inkişaf tendensiyaları, o cümlədən təhsil sahəsində əsaslı dəyişikliklərin olması, Azərbaycanın keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyması, eyni zamanda ilk peşə-ixtisas təhsili müəssisələrinin şəbəkəsinin optimallaşdırılması, təhsilin məzmununun təkmilləşdirilməsi, təlim metodları və texnologiyalarının yeniləşdirilməsi "Peşə Təhsili haqqında" qanunun qəbul edilməsi zərurətini yaratdı. Bütün bu proseslərin məntiqi nəticəsi kimi, peşə təhsilinin inkişafının əsas prioritet olduğu nəzərə alınaraq, ölkədə peşə hazırlığının səmərəliliyinin artırılması və rəqabətqabiliyyətli ixtisaslı kadrların hazırlanması məqsədilə peşə təhsili sahəsində dövlət siyasətinin prinsiplərini, peşə təhsili və təlimi sisteminin təşkilati-hüquqi və iqtisadi əsaslarını müəyyən edən 5 fəsil 26 maddədən ibarət "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. [2]

Təlim, təhsil və tərbiyənin vahid pedaqoji prosesin ayrılmaz tərkib hissəsi olması elmi ictimaiyyət tərəfindən birmənalı olaraq qəbul edilmişdir. Dahi Yunan filosofu Pifaqor (b.e.ə. 580-500) qeyd edirdi ki, təlim öyrədənlə öyrənən arasında olan qarşılıqlı istək və arzulardan, formalaşdırılmış maraqlardan ibarətdir [3, 24].

Təlim - ərəb sözüdür, mənası "öyrətmək" deməkdir, rus dilində "obuçeniye" öyrətmək və yunan dilində "didaktika"nın da mənası "öyrədirəm" deməkdir [4, 21].

Təlim pedaqoji proses olduğu üçün, əsasən, müəllim və şagird fəaliyyətini əhatə edir. Bu məqsədlə təlim prosesinin mahiyyəti müəllim və şagird fəaliyyətinin təşkili, kimi izah olunur.

Təlim prosesi ziddiyyətli prosesdir. Bu proses daim hərəkətdə və inkişafdadır. Psixoloji və pedaqoji tədqiqatlar sübut edir ki, şagirdlərin şəxsi təcrübəsi ilə elmi biliklər arasındakı idrak məsələlərini həll etmək zərurəti ilə onun imkanları arasındakı ziddiyyətlər canlı idrak prosesini təşkil edir. Bu prosesdə şagirdlər axtarışlar edir. Pedaqoji proses olaraq bilik, bacarıq və vərdişlərə yiyələnmə anlayışının həyata keçirilməsi kimi izahı olunmaqla yanaşı, təlimin tərbiyə ilə vəhdətdə olması da qeyd olunur, eyni zamanda qətiyyətlə bildirilir ki, təhsillə də bağlı bir çox məsələləri həll edir.

Təlim məqsədyönlü fəaliyyət olaraq, əsasən, bu prosesi idarə edən tərəflə uşaqlar arasında mövcud olan və qismən müstəqil həyata keçirilən əməli fəaliyyətdir. Azərbaycan xalqının ehtiyaclarına xidmət etməyə hazır olan gənc nəsil yetişdirmək əsasən təlim vasitəsi ilə həyata keçirilir [5, 103]. Təlim bir sıra vəzifələrin yerinə yetirilməsini həyata keçirir.

Təlimin təhsilləndirici vəzifəsi. Təlim zamanı şagirdlər elmi bilikləri mənimsəyir, ümumi və xüsusi səciyyəli bacarıqlar əldə edirlər. Elmi bilik deyəndə təbiət və cəmiyyətə aid şübhə doğurmayan, isbat olunmuş faktlar, anlayışlar, qanunlar, qaydalar, nəzəriyyələr, teoremlər, ümumiləşdirmələr nəzərdə tutulur. Unutmaq olmaz ki, təhsili səciyyələndirən başlıca göstərici – bilik özü də inkişaf edir, həqiqətə daha çox yaxınlaşır. Biliyin dörd başlıca məziyyəti-dolğunlugu, sistemliyi, anlaşıqlığı, istifadəliyi vardır. Biliyin dolğunlugu-onun əhatə etdiyi əlamətlərin, cəhətlərin şagirdlər tərəfindən duyulmasıdır. Biliyin sistemliyi-onun əhatə etdiyi əlamətlərdə, cəhətlərdə nizamın olduğu və onun qavranılmasıdır. Böyük rus pedaqoqu K.D. Uşinski yazırdı: "Yalnız şeylərin öz mahiyyətindən doğan ağıllı sistem bizə öz biliklərimizin üzərində hökm etməyə imkan verir. Pərakəndə, əlaqəsiz biliklərlə dolu olan baş-hər şeyi qaydasız şəkildə tökülmüş anbara bənzəyir ki, burada anbar sahibinin özü də heç bir şey tapa bilmir; biliksiz baş-ancaq sistemlər toplanmış boş-boş qəfəslərin üstündə yalnız yazıları olan dükana bənzəyir. [6, 145-146]

Biliyin anlaşıqlığı onun reallığının, həqiqiliyinin başa düşülməsidir. Biliyin istifadəliyi-lazım gələndə ondan istifadə olunması, onun tətbiq edilməsidir. Dolğun anlaşıqlı, sistemli biliyi və ondan istifadəni bacaranlar ağıllılar sırasına aid edilir. Buna görə də bilik ağılın başlıca meyarıdır. Ağılın ikinci göstəricisi bacarıq və vərdişlərdir. Təlimdə şagirdlərin öyrəndikləri bacarıq və vərdişləri iki əsas qrupa ayırmaq olar:

1) Ümumi bacarıq və vərdişlər.
2) Xüsusi bacarıqlar və vərdişlər.

Ümumi bacarıq və vərdişləri müstəsnasız olaraq bütün fənlərin tədrisində müşahidə etmək mümkündür. Məsələn, oxumaq və yazmaq bacarıqları; oxunu planlaşdırmaq, konspektləşdirmək

bacarıqları; oxunu sahmana salmaq bacarığı; sorğu kitablarından lüğətlərdən istifadə etmək bacarığı; kitabxanada kartoteka üzərində işləmək bacarığı; gün rejiminə əməl etmək bacarığı və s. bu cür bacarıqlara aid edilə bilər.

Təlimin tərbiyələndirici vəzifəsi. Təlimin hər cəhəti-təlimin məzmunu da, tətbiq olunan üsullar da, təlimin təşkili forması da, təlimdə şagird-müəllim, şagird-şagird münasibətləri də tərbiyə edir.

Təlimin məzmunu şagirdlərdə əsasən dünyagörüşün formalaşmasına xidmət edir. Dünyagörüşü isə müxtəlif ola bilir: materialist, idealist, dini. Kilsə və məscid məktəblərində təlim uşaqlarda dini dünyagörüşün yaranmasına kömək edir. Öz şəxsi fəaliyyətlərinin, hiss və fikirlərinin əxlaqi və ictimai motivlərini təlimdə duyan şagirdlərin şəxsiyyəti intensiv şəkildə formalaşır. Təlimin tərbiyələndirici vəzifəyə malik olduğunu aydın başa düşən və bu cəhəti öz işində nəzərə alan müəllimin dərslərinin tərbiyəvi təsir gücü xeyli artır. Təlimin təhsilləndirici və tərbiyələndirici vəzifələri bir-birini tamamlayır. Təlim zamanı təbiət və cəmiyyət hadisələrinə elmi cəhətdən yanaşmağa, onlara əxlaqi və estetik qiymət verməyə alışan şagirdlər konkret bilikləri daha möhkəm mənimsəyirlər. Ayrı-ayrı fənlər üzrə biliklərin bacarıq və vərdişlərin şagirdlər tərəfindən möhkəm mənimsənilməsi isə öz növbəsində, onların tərbiyəlilik səviyyəsini yüksəltməyin zəminə çevirir.

Təlimin inkişafetdirici vəzifəsi. Təlim prosesi obyektiv olaraq nəinki təhsil verir və tərbiyə edir, həm də şagird şəxsiyyətini inkişaf etdirir. Bir sıra tədqiqatlarla sübut edilmişdir ki təlimin məzmunu və metodikası dəyişməklə uşaqların inkişaf səviyyəsini yeniləşdirmək mümkündür.

Təlimdə şagirdlərin inkişafı onlarda nitq və təfəkkürün hiss və həyəcanların, qabiliyyətlərin və s. psixi proses və xüsusiyyətlərin birlikdə inkişafı deməkdir. Bütün fənlərin tədrisi şagirdlərdə nitqin inkişafına müəyyən təsir göstərir: onlarda lüğət ehtiyatı genişlənir, sözlərin məna çalarları artır, nitqin obrazlığı, ifadə tərzləri zənginləşir. Uşağın nitq inkişafının, ümumi mədəni inkişafını başlıca göstəricilərindən biridir. Nitqin zənginliyi fikrin nitqdə aydınlığı və dəqiqliyi, nitqin təsirliliyi və məntiqliyi təlimdə şagirdlərin nə dərəcədə irəlilədiklərini müəyyənləşdirməyə əsas verir.

Yalnız türk dünyasında deyil, həmdə bütün dünya elm və mədəniyyət aləmində yüksək mövqe qazanmış böyük filosof həkim və pedaqoq İbn Sina (980-1037) təlimin təşkili prinsiplərinə toxunmuş, aşağıdakıların əsas istiqamət olaraq götürülməsini vacib saymışdır:

1) Uşağı ilk gündən kitaba bağlamaq lazım deyil, ilk öncə oyun fəaliyyətini təşkil etmək lazımdır.

2) Uşaqlarla aparılan məşğələlər müəyyən vaxt ərzində və onların gücü daxilində olmalıdır

3) Təlim kollektiv şəkildə aparılmalıdır

4) Əqli məşğələlər kollektiv şəkildə aparılmalıdır

5) Uşaqların meyl və qabiliyyətləri nəzərə alınmalıdır

6) Təlimdə müvafiqlik-yəni asandan-çətinə, məlumdan-məchula, sadədən-mürəkkəbə geniş qaydada gözlənilməlidir. [7, 228]

İbn Sina təlim və tərbiyənin 6 növündən bəhs edərək aşağıdakıları qeyd edir:

1) Zehni təlim;
2) Təcrübi təlim;
3) Təlqini təlim;
4) Tədib təlimi;
5) Təqlidi təlim;
6) Tənbeh təlimi [7, 235].

İlk peşə-ixtisas təhsili müəssisələrində aparılan təlim-tərbiyə işinin keyfiyyətinin yüksəlməyin zəruriliyi xüsusi qeyd edilməlidir. Qarşıya qoyulmuş vəzifənin müvəffəqiyyətlə yerinə yetirilməsi üçün təlim-tərbiyə prosesinə pedaqoji rəhbərliyi daimi təkmilləşdirmək tələb olunur. Təlim-tərbiyə işinin keyfiyyətinin yüksəldilməsində təlim prosesinə daimi təsirli nəzarət əhəmiyyətli rol oynayır, bu nəzarətin də əsasını ustalar və müəllimlər tərəfindən dərslərin aparılma keyfiyyətini yoxlamaq təşkil edir, çünki dərs təlim-tərbiyə işinin başlıca formasıdır. Peşə məktəbi və peşə liseylərində istehsalat ustalarının və mühəndis pedaqoji işçilərinə nəzarət formaları və metodları Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Respublika Təhsil Nazirliyinin təsdiq etdiyi əsasnamə və nizamnamə əsasında aparılır. Belə ki, Peşə təhsil müəssisələrinin direktorları və onların müavinləri, dərs hissə müdirləri, baş ustalar, metodika komissiyaları və fənn komissiyasının sədrləri müntəzəm

surətdə, planlı qaydada, nəzarət məqsədilə müəllimlərin və istehsalat təlim ustalarının dərslərində iştirak etməlidirlər. Tədris prosesinə nəzarət edərkən məktəb rəhbərliyi bir o qədər müdiriyyət rolunda yox, daha çox pedaqoq rəhbər kimi çıxış etsinlər, müəllimləri, ustaları və şagirdlərin onların yaradıcı əməyini qarşılarında duran vəzifələrin yerinə yetirilməsinə yönəldilmiş formada təşkil və onlar müəllimlərə və istehsalat təlimi ustalarına ixtisaslı metodik göstərsinlər. Müəllimlərin və istehsalat təlimi ustalarının dəqiq işi ilə gündəlik tanışlıq, dərslərin metodiki cəhətdən əsaslandırılmış təhlili ilə müşayiət olunduğu zaman, təlim-tərbiyə prosesinin keyfiyyətinin yüksəldilməsinə hərtərəfli kömək edəcəkdir. Lakin təlim prosesinə nəzarətin səmərəliliyi həmişə kifayət dərəcədə yüksək olmur. Bu bir sıra səbəblərlə izah olunur:

-Nəzarət üçün dərsə gəlmələr çox vaxt təsadüfü olur, konkret bir məqsəd daşımır;

-Dərsin gedişi müşahidə edilərkən iştirakçının müəyyən edici aydın metodik qaydası olmur, bunun da nəticəsində ən əhəmiyyətli cəhətlər həm müsbət həm mənfi cəhətlər yaxşı araşdırılmır;

-Dərs barədə təhlillər bir çox hallarda səthi olur, çünki dərsə nəzarət edən şəxslər həmin dərsə qabaqcadan hazırlaşmır, ona görə də həmişə obyektiv qiymət verə bilmirlər;

-Peşə təhsil müəssisələrinin rəhbərlərinin planlarında ancaq müəyyən istehsalat ustalarının və ya müəllimlərin dərslərinin sayı nəzərdə tutulur, lakin iştirakın məqsədi müəyyən edilmir;

-Çox vaxt dərsdə iştirak etmələrinin nəticələri haqqındakı qeydlər yalnız dərsin gedişinin müfəssəl şərhindən ibarət olur, bu qeydlər nə müəllimin, nə də şagirdlərin iş sistemi öz əksini tapır, şagirdlərin bacarıq və vərdişlərinin təhlili yoxdur, dərsin aparılmasının təşkili və metodikasındakı ayrı-ayrı müsbət və mənfi cəhətlər ayrıca göstərilmir, dərsin keyfiyyətinin yaxşılaşdırılması barədə nəticələr çıxarılmır və təkliflər verilmir;

- Dərsə nəzarət ustalar və müəllimlərlə təlimatlandırma aparılmadan, qabaqcıl pedaqoji təcrübə aşkara çıxarılmadan və yayılmadan keçir, həm də bu nəzarətdə nöqsanların təhlili və onların aradan qaldırılması üzrə tövsiyələr verilmir. Bəzən dərsdə iştirak edən pedaqoji işçilər dərsin ətraflı tənqidi təhlilini aparmır, onun daha əhəmiyyətli cəhətlərini qeydə almır, yalnız ümumi ifadələrlə kifayətlənir. Belə ki, dərsi dinləyən şəxsdən müəllim "vaxta düzgün riayət etməyib", dərs "dolğun deyildi", "sorğu sual zəif idi", "dərs tələsik keçdi", "şagirdlərin fəallığı kifayət dərəcədə deyildi". Başqa sözlərlə desək, belə bir dərsin təhlili düşünülməmiş, məntiqsiz, sistemsiz formada ağlına nə gəlirsə deyir, Belə nəzarət müəllim üçün faydalı ola bilsin. Ona görə də nəzarət metodu olan dərsin təhlili əslində həm də təlimatlandırma metodudur. Təlimatlandırma isə müəllim və istehsalat ustalarında təşəbbüsü istiqamətləndirmək, onun səhvlərinin qarşısını almaq, yəni onların pedaqoji məharətini hər vasitə ilə təkmilləşdirmək lazımdır.

**Ədəbiyyat:**


1. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 19 iyun 2009-cu il. № 833-IIIQ. http://www.e-qanun.az/alpidata/framework/data/18/c_f_18343.htm
2. "Peşə təhsili haqqında" Azərbaycan Respublikasının Qanunu Bakı şəhəri, 24 aprel 2018-ci il. № 1071-VQ. http://www.e-qanun.az/framework/39275
3. Rüstəmov F. Pedaqogika tarixi. Bakı, 2010.
4. Həsənov A., Ağayev Ə. Pedaqogika. Bakı, 2007.
5. Kazımov N.M., Ə.Ş. Həşimov. Pedaqogika. Bakı: Maarif, 1996.
6. Uşinski K.D. Seçilmiş pedaqoji əsərləri". Bakı, 1953.
7. Hüseynzadə R.L. Erkən orta əsrlər dövründə Azərbaycanda məktəb və pedaqoji fikir. Bakı, 2005.


**E-mail:** bayramov.hasan@mail.ru
**Rəyçi:** *ped.elm.dok., prof.* H.H. Əhmədov
**Redaksiyaya daxil olub:** 20.11.2018